

# ÇIRAĞIMIZ YANIR, ÇAYIMIZ AXIR...

**Dünya Azərbaycanlılarının I qurultayında ümummilli lider Heydər Əliyev yaddaşlara iz salan nitqinin sonunda öz xalqına əbədi arzularını yetirirdi: "Qoy çaylarımız qurumasın! Qoy ağaclarımız kəsilməsin, qoy çırağımız sönməsin!.."**

Azərbaycan mənəviyyatını zirvələrə doğru çəkən və onun keşiyində mətanətlə dayanan Heydər Əliyev həmişə bizimlədir. Dövlətimizin çiçəklənməsi yolunda apardığı mübarizə bu gün də yaşamaqdadır. İftixar və qürurla deyirik ki, ulu öndərin arzuları yerinə yetir. Çırağımız yanır, çayımız axır, ağacımız yaşıldır. Tarixi və mədəni hadisələrin məsafə uzaqlığında Azərbaycanın taleyində ümummilli lider Heydər Əliyevin xidmətləri getdikcə daha aydın və parlaq görünməkdədir.

Xalqa xidmət etmək şərəfinin ən halal və fədakar sahibi olan ulu öndər həyatımızın bütün sahələrində unudulmaz məqamlar, qüdrətli və əzəmətli yadigarlar nəql edib ki, zaman ötdükcə dahi şəxsiyyətin müqəddəs xatirəsi önündə ehtiramla baş əyir, hünəri, əməyi qarşısında heyrətimizi, məhəbbətimizi dəfələrlə bildirməyi özümüzə borc sanırıq.

Azərbaycan ədəbiyyatına öz himayəsi, diqqəti və qayğısı ilə seçilən ümummilli lider sözü öz ucalığında dəyərləndirən ədəbi aləmə ədəbiyyatçılardan çox xidmət edən, klassik, eləcə də müasir yazıçı və şairlərin yaradıcılığını tənqidçilərdən də sərrast, dürüst təhlilə çəkən, qiymətləndirən, qeyri-adi düşüncə və fikir sahibi idi. Azərbaycan mədəniyyətinin, ədəbiyyatının Heydər Əliyev qədər əsl himayədarı, böyük qayğıkeşi olmayıb.

Ulu öndər bu sahələrə sadəcə qayğı göstərməklə kifayətlənmirdi. İstənilən ədəbi-bədii əsər, musiqi sənəti haqqında elə dəqiq danışaraq maraqlı təhlillər verirdi ki, sənətşünaslar, tənqidçilər ona həsəd aparırdılar. Çünki bu böyük və müdrik insanla fikir mübadiləsinə qoşulmaq o qədər də asan deyildi. Ümummilli lider ədəbiyyata olan münasibətini belə açıqlamışdır: "Ədəbiyyata olan məhəbbətimi sübut etməyə elə bir ehtiyac yoxdur. Bunu Azərbaycanda yaxşı bilirlər. Bu, mənim vəzifəmə görə deyildir, mənim təbiətimdir, içimdən gələn hissiyyatımdır. Məndə həmişə - hələ uşaq, gənc yaşlarımdan şeirə, ədəbiyyata, incəsənətə, mədəniyyətə çox böyük həvəs olubdur, həmişə maraqlanmışam. İndi dövlət işi ilə məşğul olanda da mən bunun nə qədər əhəmiyyətli olduğunu bilirəm, dərk edirəm. Ona görə də əlimdən gələni edirəm".

Heydər Əliyev klassik ədəbiyyatı dərindən bilən və qiymətləndirən böyük şəxsiyyət idi. 1967-ci ildə klassik Azərbaycan şairi Molla Pənah Vaqifin 250 illik yubiley tədbirləri keçirilsə də, onun qəbri üzərində məqbərəsinin tikilməsi məhz Heydər Əliyevin təşəbbüsü ilə 9 il sonra baş tutdu. Qarabağ xanının vəziri olmuş Molla Pənah Vaqif kimi bir el sənətkarının yaradıcılığına sovet dövründə dövlət səviyyəsində yüksək qiymətin verilməsi Heydər Əliyev müdrikliyinin bəhrəsi idi.

Ulu öndər bununla həm də Şuşanı Azərbaycanın qədim mədəniyyət və musiqi beşiyi kimi dəyərləndirirdi. Məqbərənin açılışında Heydər Əliyevin söylədiyi geniş nitqi çoxəsrlik Azərbaycan poeziyasına və onun yaradıcılarına verilən bir qiymət idi. Heydər Əliyev bu müdrik addımı ilə həm də qonşularımıza bir daha mesaj çatdırırdı ki, Vaqifin məqbərəsi Azərbaycan ruhunun, Azərbaycan poeziyasının simvoludur. O vaxtlar Vaqif poeziya günləri Qazaxda başlanar, Şuşada bu məqbərənin önündə başa çatardı. İnanırıq ki, ulu öndərin saldığı o möhtəşəm cığırlardakı yad alaqlar tezliklə təmizlənəcək, biz yenə də qədim və doğma şəhərimizə qayıdacağıq.

**Heydər Əliyevin Azərbaycan ədəbiyyatına göstərdiyi xidmətlər saysız-hesabsızdır. Müdrik rəhbərimiz həm qayğı göstərirdi, həm də başqa bir xeyirxahlıq missiyasını ləyaqətlə yerinə yetirirdi. Ədəbiyyat adamlarına şərait yaratmaqla bərabər onları dövrün, zamanın gərdişindən, quruluşun təzyiqlərindən və ittihamlardan məharətlə qoruyurdu.**

Bu faktı hamı etiraf edirdi ki, sovet dövründə yaşayıb yaradan bir qrup qələm sahibinin xilaskarı məhz Heydər Əliyev olub. Bəxtiyar Vahabzadənin, Xəlil Rza Ulutürkün, İlyas Əfəndiyevin, Mirzə İbrahimovun, Anarın sovet dövründəki milli ruhda köklənmiş əsərləri, çıxış və məqalələri başlarına bəla gətirərdi. Çünki bu müəlliflər elə bir zamanda azadlıq, həqiqət axtarırdılar, milli düşüncəyə söykənən məsələlər qaldırırdılar ki, onları bu cəsarətlərinə görə ən azı Cavidin, Müşfiqin taleyi gözləyərdi.

Yəqin ki, "Qobustan" jurnalının ilk nömrələri diqqətli oxucuların yaddaşında iz salmış olar. Hətta o vaxtlar belə bir şayiə də gəzirdi ki, jurnalın redaktorunu - Anarı həbs edəcəklər. Təbii ki, belə bir hadisə baş vermədi. 1997-ci ildə Azərbaycan yazıçılarının X qurultayında Heydər Əliyev uzun illər qaranlıq qalmış həmin müəmmalı məsələyə aydınlıq gətirdi: "Jurnal yarananda əleyhinə nə qədər cürbəcür hərəkətlər oldu.

Biri gəlirdi ki, nə bilim müstəqillik ideyaları yayır, biri gəlirdi ki, bizim quruluşun əleyhinə ideyalar yayır, biri o tərəfdən, biri bu tərəfdən gəlirdi. Mən götürürdüm, baxırdım bu "Qobustan" jurnalına. Gördüm ki, burada bunların dedikləri şey yoxdur. Amma bizim üçün lazım olan məsələlər çoxdur. Ona görə də "Qobustan" jurnalı yaşadı. Bu jurnal o vaxt çox böyük işlər gördü. Amma təkcə "Qobustan" jurnalı deyildi. "Azərbaycan", "Ulduz" jurnallarını götürün. Bunlar dövlət jurnalları idi.

Amma bu jurnallarda siz nə istəyirdiniz onu da dərc edirdiniz. Heç bir məhdudiyyət yox idi. Kim nə istəyirdi, onu da yazırdı... Bu gün iftixar hissi ilə deyə bilərəm ki, 1969-cu ildə Azərbaycanın rəhbəri olduğum zamandan indiyə qədər bir şairin, bir yazıçının





əsəri qadağan edilməyib".

Ədəbiyyata vətəndaşlıq, vətənpərvərlik, insanpərvərlik məktəbi kimi baxan Heydər Əliyev onu göz-bəbəyi kimi qoruyur və inkişaf etməsi üçün gözəl şərait yaradırdı. 1981-ci ildə Şüvəlanda Yazıçıların Yaradıcılıq Evinin açılışı o dövrdə böyük bir hadisəyə çevrildi.

Heydər Əliyevin xidmətləri nəticəsində Azərbaycan ədəbiyyatı, mədəniyyəti, incəsənəti sözün həqiqi mənasında yüksəliş dövrü keçirdi. 1970-1982-ci illər arasında memarlıq və şəhərsalma, monumental incəsənət, təsviri sənət, musiqi, teatr, kino və ədəbi yaradıcılıq sahəsində misli-bərabəri görünməyən tərəqqi baş verdi. O dövrdə Azərbaycanın bütün şəhərlərində mədəniyyət evləri, memarlıq ansamblları yaradıldı.

1949-cu ildə fəaliyyəti dayandırılmış bir sıra rayon teatrları yenidən həyata qaytarıldı. Azərbaycanın müxtəlif bölgələrində şair və yazıçıların, mədəniyyət və incəsənət xadimlərinin, xalq qəhrəmanlarının xatirəsini əbədiləşdirmək üçün abidələr ucaldıldı, ev-muzeyləri açıldı. İmadəddin Nəsimi, Cəfər Cabbarlı, Səməd Vurğun, Nəriman Nərimanov, Mehdi Hüseynzadə və başqalarının şərəfinə ucaldılmış heykəllərin təşəbbüskarı məhz Heydər Əliyev olub.

**Ulu öndərin ölkəyə rəhbərliyi dövründə "Kitabi-Dədə Qorqud"dan üzübəri Azərbaycan ədəbiyyatına şah əsərlər bəxş etmiş klassik şairlərin, yazıçıların həm təntənəli yubileyləri keçirildi, həm də onların xatirəsini əbədiləşdirmək üçün müxtəlif tədbirlər görüldü. Şuşada Molla Pənah Vaqifin, Naxçıvanda Əcəminin, Bakıda Nəsiminin, Gəncədə Nigar Rəfibəylinin möhtəşəm abidələri yaradıldı. Heydər Əliyev bütün bu təntənəli günlərin açılışında mütləq iştirak və çıxışlar edərdi.**

1937-ci ilin repressiya qurbanı, dahi Azərbaycan dramaturqu Hüseyn Cavidin nəşi uzaq Sibirdən doğma vətənə gətirildi. Naxçıvanda Möminə Xatun məqbərəsinin əkiz tayı - Cavidlər məqbərəsi yaradıldı, Bakıda böyük sənətkarın (memar Ömər Eldarov tərəfindən) abidə-kompleksi hazırlandı.

1996-cı ildə Naxçıvanda Hüseyn Cavidin məqbərəsinin açılış mərasimində iştirak edən Heydər Əliyev ehtiramla söylədi: "Mən 1982-ci ilin sonunda Moskvaya gedərkən qərar vermişdim ki, Hüseyn Cavidin qəbri üzərində məqbərə tikilməli, yaradılmalıdır. ...Bu məqbərənin necə olması, hansı memarlıq üslubunda qurulması haqqında çox düşünmüşəm. Ona görə də öz tövsiyələrimi, mülahizələrimi verdim, fikirlərimi söylədim. Memar Rasim Əliyev onları həyata keçirə bildi. Sevinirəm ki, 15 il bundan əvvəl verdiyim qərar indi öz nəticəsini verdi". Əlbəttə, 1982-ci ildə Hüseyn Cavid kimi bir azadlıq pərvanəsinin, milli düşüncə sahibinin cənazəsini Sibirdən Azərbaycana gətirmək elə də asan deyildi. Bu işin məhz sinəsində xalqına, millətinə, ədəbiyyatına, mənəviyyatına sədaqət dolu ürək gəzdirən Heydər Əliyev edə bilərdi.

Cavidin Bakıda ev-muzeyinin açılması da Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışından sonra baş verdi. Cavid irsinin nəşrinə, təbliğ və tədqiqinə Heydər Əliyev xüsusi diqqət göstərib. Demək olar ki, Heydər Əliyev Azərbaycan cavidşünaslığında qoyulan bünövrənin banisidir. Ədəbiyyata vurğunluğu ilə seçilən Heydər Əliyev yazıçılarla tez-tez görüşməyi, onları dinləməyi, yaradıcılıq söhbətləri aparmağı çox sevərdi. Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi ilk dövrlərdən başlayaraq yazıçıların müxtəlif vaxtlarda keçirilən qurultaylarında məmnuniyyətlə iştirak edərdi.

Bu qurultaylardakı nitqləri, eləcə də yazıçıların müxtəlif yaradıcılıq konfranslarında iştirakı zamanı söylədiyi fikirlər ədəbi prosesin istiqamətlərini müəyyənləşdirirdi. Milli ədəbiyyatın inkişaf perspektivlərini məharətlə müəyyənləşdirən Heydər Əliyev ədəbi prosesə bacarıqlı qüvvələrin gəlməsinə xüsusi qayğı göstərirdi. Azərbaycan yazıçılarının VII qurultayındakı (1981) "Ədəbiyyatın yüksək borcu və amalı" adlı nitqində Heydər Əliyev Azərbaycan ədəbiyyatının keçdiyi inkişaf yoluna hərtərəfli nəzər salaraq əsl ədəbiyyatşünas, ədəbiyyat tarixçisi kimi ədəbi aləmdəki uğur və nöqsanları ətraflı təhlil edərək hamını öz cazibəsində saxladı.

Dövrün bədii söz sahibləri, yazıçılar, tənqidçilər Heydər Əliyevin dolğun və məzmunlu nitqi qarşısında heyrətlənirdilər. Heydər Əliyev bütün dövrlərdə ədəbi dilin saflığı uğrunda mübarizə aparırdı və hamını ədəbi dil normasına, nitq mədəniyyətinə riayət etməyə çağırırdı.

Heydər Əliyev bu qurultaylarda həmişə ədəbi tənqidin vəziyyətinə toxunaraq bildirirdi: "Müasir ədəbi prosesi tənqidçilərin, ədəbiyyatşünasların fəal və faydalı işi olmadan təsəvvür etmək mümkün deyildir. Onlar ədəbi həyatımızın mürəkkəb, bəzən ziddiyyətli proseslərini dərindən təhlil etməyə və ümumiləşdirməyə borcludurlar". Heydər Əliyev tənqidi sözün obyektiv olmasının tərəfdarı idi. Ulu öndər ömrü boyu qərəzçiliyin əleyhinə idi. Heydər Əliyev yazıçılarla görüşlərinin birində söyləyirdi: "Azərbaycan xalqının milli sərvəti və intellektual mülkiyyəti, eyni zamanda Azərbaycan ədəbiyyatıdır, mədəniyyətidir. Bizim iqtisadi potensialımız olduğu kimi, intellektual potensialımız da vardır. Bizim mənəvi potensialımız - ədəbiyyatımız və mədəniyyətimizdir".

Həmişə ədəbiyyatçılara bu mövqedən yanaşan Heydər Əliyev öz səmimi söhbətləri və qayğısı nəticəsində qələm sahiblərini yeni-yeni əsərlər yaratmağa ruhlandırırdı. Heydər Əliyevin səmimiyyəti, maraqlı təklifləri yazıçılara yeni mövzular verərdi. Həqiqətən də belə görüşlərdən sonra ədəbi aləmdə mütləq canlanma, ciddi dəyişiklik duyulardı.1993-cü ildə ümummilli liderin yenidən hakimiyyətə qayıdışı mədəni həyatda bir coşğunluq yaratdı.

Müstəqillik dövrünə qədəm qoymuş Azərbaycan dahi rəhbərin ədəbiyyat, mədəniyyət və incəsənətə göstərdiyi qayğının yeni sevinclərini yaşadı. Görkəmli ziyalıların, yazıçı və şairlərin, elm xadimlərinin, sənət adamlarının əməyini yüksək qiymətləndirən Heydər Əliyev onların həyat tərzinin daha da yaxşılaşması üçün müxtəlif sərəncamlar imzaladı. Bir qrup ədəbiyyat, mədəniyyət, incəsənət xadimlərinə Prezident təqaüdləri, aktyor və musiqiçilərə, yazıçılara pul mükafatları, fəxri adlar, orden və medallar verildi.

Ümummilli lider görkəmli şəxsiyyətlərin yubileylərinin dövlət səviyyəsində keçirilməsi üçün müxtəlif vaxtlarda sərəncamlar imzaladı. Ulu öndər həmişə təntənəli yubiley mərasimlərinə xüsusi əhəmiyyət verirdi və bu barədə deyirdi: "Dünya təcrübəsi göstərir ki, yubileyin keçirilməsi bir tərəfdən yubilyarın xalq, ölkə, dünya qarşısında xidmətlərini bir daha təbliğ və nümayiş etdirmək, digər tərəfdən müasir nəslin ona bəslədiyi hörmət və ehtiram deməkdir". Azərbaycan tamaşaçısı, oxucusu hələ də unutmayıb ki, Heydər Əliyev bu təntənəli yubileylərdə həm təşkilatçı, həm də iştirakçı olardı.

Ölkəmiz dövlət müstəqilliyini əldə etdikdən sonra bir sıra yeni orden və medallar təsis olundu. Diqqət çəkən budur ki, o dövrdə Azərbaycanın ən yüksək mükafatı olan "İstiqlal" ordeni ilk dəfə məhz ədəbiyyat xadimlərinə verildi. Əvvəlcə üç şair - Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk, sonralar isə yazıçılardan İsa Hüseynov, Anar və şairə Mirvarid Dilbazi də bu mükafata layiq görüldülər. "Şöhrət" ordeni alan ilk yazıçılarımız - İsmayıl Şıxlı, Hüseyn İbrahimov oldu. "Tərəqqi" medalı ilə Əmir Mustafayev, Teymur Əhmədov təltif edildilər. Əzizə Cəfərzadə xalq yazıçısı fəxri adını alan ilk qadın ədib oldu. Yazıçılardan - Elçin, Maqsud və Rüstəm İbrahimbəyov qardaşları da bu şərəfli ada layiq görüldülər.

Xalq şairi fəxri adı Hökumə Bülluri, Zöhrab Tahir, Cabir Novruz və Fikrət Qocaya verildi. Fəxri təqaüdlərə isə həm yaşlı, həm də gənc nəslin nümayəndələri layiq görüldülər. Burada bir məsələni də qeyd edək ki, klassiklərlə, eləcə də yaşlı sənətkarlarla yanaşı Heydər Əliyev gənc nəslə, ilk növbədə istedadlara qayğı və diqqət göstərməyi çox sevirdi. Ulu öndər həmişə məhəbbətlə deyirdi: "İstedadlar -uşaqlar, gənclər də bilirlər ki, onların bütün qayğılarını Azərbaycan Prezidenti özü şəxsən çəkəcəkdir". Bu vədin necə göyərdiyi haqqında bir neçə faktı xatırladaq. 22 iyun 1996-cı ildə Azərbaycanın gənc istedadlılarının "Qızıl kitabı", Gənc İstedadlılar Fondu yaradıldı. Adı "Qızıl kitab"a düşən gənc istedadlılara xüsusi təqaüd təsis edildi.

**Heydər Əliyevin mənəvi aləmə, ədəbiyyata, mədəniyyətə göstərdiyi diqqət səbəbsiz deyildir. Ümummilli lider deyirdi: "Mən şeirə də, mahnıya da çox hissiyyatlı adamam, musiqi, mahnı məni həmişə həyəcanlandırır. Yaxşı şeiri, bayatını heç vaxt yaddan çıxarmıram".**

**Yəqin ki, ulu öndərin daxili zənginliyini bu fikir qədər heç bir mülahizə dəqiq aça bilməz. Heydər Əliyevin sevdiyi şairlər, bəstəkarlar, mahnılar, əsərlər var idi. Bunların sırasında bəstəkar Üzeyir Hacıbəyov, şair Şəhriyar, Hüseyn Cavid var idi. Unudulmaz insanın fikirlərindən: "Tofiq Quliyevin mahnıları çoxdur.**

Lakin "Sənə də qalmaz" bunların zirvəsidir. Mən bu mahnını çox sevirəm". Ulu öndər xalq artisti Niyaməddin Musayevin ifasında Məmməd Arazın sözlərinə yazılmış "Dünya sənin, dünya mənim, dün-

ya heç kimin" mahnısını da dinləməyi çox sevirdi. Heydər Əliyevin diqqətindən heç bir ədəbi yenilik yayınmırdı. Ümumilikdə ulu öndərin bu sahədəki həssaslığının analoqu yoxdur.

1994-cü il YUNESKO-nun xətti ilə Füzuli ili elan olundu. O zaman Heydər Əliyev "Füzulinin 500 illik yubileyinin yüksək səviyyədə keçirilməsi üçün xüsusi komissiyanın yaradılması haqqında" sərəncam imzaladı. Həqiqətən də bu yubiley dünyanın mədəni aləmində bir bayrama çevrildi. Moskva, Sankt-Peterburq, Kərbəla, Kərkük, Bağdad, Ankara, Tehran, Paris, Tbilisi, Daşkənddə, YUNESKO-nun baş qərargahında, Bakıda Füzulinin yubileyi təntənəli surətdə qeyd edildi."Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" kitabında oxuyuruq: "Heydər Əliyev ədəbiyyatşünasları, mətinşünasları, dilçiləri və başqa sahələrin mütəxəssislərini yalnız Füzulinin əsərlərini çapa hazırlamaqla öz işlərini bitmiş hesab etməməyə çağırırdı...

Heydər Əliyev Azərbaycan ədəbiyyatşünaslarının qarşısında Füzulini dünya miqyasında tanıda biləcək dərin elmi mündəricəli, yüksək tədqiqatçılıq keyfiyyətlərinə malik, lakin eyni zamanda geniş oxucu kütləsi üçün yazılmış populyar bir əsər qələmə almasını aktual vəzifə olaraq qarşıya qoyurdu..." Heydər Əliyev ədəbiyyatçılara tövsiyələrini verərək birmənalı olaraq tapşırırdı: "Füzuli haqqında elə bir kitab yazmaq lazımdır ki, biz onu ingilis, fransız, alman, ərəb, fars dillərinə tərcümə edib yayaq". Ümummilli lider ədəbiyyatımızın tarixi köklərinə çox diqqətli münasibət göstərərdi.

Xüsusilə də "milli yarlığımızın mötəbər qaynağı" adlandırdığı "Kitabi-Dədə Qorqud"a xüsusi rəğbəti var idi. Dövlət müstəqilliyimizi qazandıqdan sonra Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin dövlət səviyyəsində qeyd edilməsi ilə bağlı imzaladığı fərman (1997-ci il 20 aprel) böyük tarixi nailiyyət idi. Ümummilli lider iftixar hissi ilə bildirirdi: "Kitabi-Dədə Qorqud" bizim ana kitabımızdır. Dədə Qorqud bizim əcdadımızdır. Biz fəxr edirik ki, belə tarixi abidəmiz... var".

"Kitabi-Dədə Qorqud"un yubiley təntənəsinə bütün dünya şahidlik etdi. YUNESKO tərəfindən bu tədbirin keçirilməsi Heydər Əliyev siyasətinin qələbəsi idi. Bu hadisələrdən qaynaqlanan başqa bir mədəniyyət, ədəbiyyat abidəsinin-"Manas" eposunun 1000 illik yubileyinin beynəlxalq səviyyədə qeyd olunması türk dünyasında böyük əks-səda verdi.

Özbəkistan Respublikası Prezidentinin dəvəti ilə 1997-ci ildə Daşkənddə yubiley mərasimində iştirak edən Heydər Əliyev qətiyyətlə bütün dünya türklərinə səsləndi: "Biz ümumi köklərə bağlıyıq, eyni tarixi köklərə mənsubuq və xalqlarımızın dil birliyi, mənəvi-əxlaqi, mədəni dəyərlərinin birliyi bizi həmişə birləşdirmiş və dostluq şəraiti, qarşılıqlı yardım şəraiti yaratmışdır. Biz "Dədə Qorqud", "Alpamış", "Koroğlu" dastanlarından iftixar hissi ilə danışırıq. Çünki onlar həm özbək, həm də Azərbaycan xalqları üçün eyni dərəcədə dəyərlidir".

Ədəbiyyatımızın, tariximizin, mənəviyyatımızın ən dərin qatlarına bələd olan Heydər Əliyevin bu sahələrə olan həssas münasibəti təkcə Azərbaycan müstəvisində müəyyənləşmirdi.

Heydər Əliyevin düşüncələrində, mənəvi dəyərlərimizlə bağlı söylədiyi fikir və mülahizələrində mütləq türk xalqlarının ortaq keçmişindən məntiq və faktlar qaynaqlanırdı: "Biz adətən böyük tariximiz haqqında, xalqlarımızın mədəniyyəti haqqında danışarkən birinci növbədə onların yaratdıqları bədii əsərlərə, şairlərimizin, yazıçılarımızın yaradıcılığına istinad edirik, onları nümunə gətiririk. Nizami, Yunis Əmrə, Əlişir Nəvai, Füzuli, Nəsimi, Məxdumqulu, Abay və digərləri xalqlarımızın tarixini, mənəvi dəyərlərini əks etdirən, onu dünyada tanıdan ölməz əsərlər yaratmışlar və bunlar nəsillərdən-nəsillərə keçərək xalqımızı özünəməxsus milli-mənəvi dəyərlər, o cümlədən ümumbəşəri dəyərlər əsasında tərbiyə etmiş, hazırlamış, vətənpərvərlik, vətənə sədaqət hisslərini daim gücləndirmişdir".

**Heydər Əliyev Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, mənəviyyatının, tarixinin əvəzsiz qayğıkeşi idi. Unudulmaz insanın bu istiqamətdəki nəhəng işləri sərkərdə xidməti ilə ölçüyə gələ bilər. Ulu öndərin bütün varlığı xalqa, onun ədəbiyyatına, mədəniyyətinə xidmətdən yoğrulmuşdur. Ümummilli lider haqqında yazanlar həqiqətən bir fikrin üzərində tez-tez dayanırlar ki, Heydər Əliyev sənətdə süniliyin, arxaikliyin, tənbəlliyin əleyhinə çıxardı. Yaradıcılığa məsuliyyətlə yanaşmağı, tərəqqi və irəliləyiş yolunu seçməyi vacib sayırdı. Yaranan hər bir bədii əsərin məzmununa, mənasına, mənəvi dəyərlərlə əlaqəsinə, süjetinə diqqət verərdi. Bu mövqe və münasibət hər birimiz üçün böyük məktəbdir. Bu bitib-tükənməyən dəryadan hələ öyrənməli cəhətlər çoxdur...**

**● F. XƏLİLZADƏ**